# Boşanma nikahda uyğunsuzluğun nəticəsi kimi

**Yeganə Baxış qızı Əskərova**
*psixologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** y.askerova@inbox.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** nikah, ailə, evlilik, boşanma, mənəvi dəyərlər, xoşbəxtlik, müdaxilə, fədakarlıq

**Ключевые слова:** брак, семья, женитьба, развод, моральные ценности, счастье, вмешательство, самоотверженность

**Key words:** marriage, family, divorce, moral values, happiness, intervention, self-sacrifice

Ailə milli-mənəvi dəyərlərin təcəssümü, daşıyıcısı olub, mənsub olduğu xalq, millət haqqında ilkin təsəvvürlər yaradır. Ailə dəyərlərin uşaqlara köçürüldüyü əhəmiyyətli bir müəssisə, fərdin ilk təhsil və tərbiyəsini aldığı eyni zamanda, şəxsiyyətin və xarakterin formalaşdığı başlanğıc mühitdir. Başqa sözlə "Ailə ər-arvadlıq-valideynlik-qohumluq əlaqələri ilə bağlanmış, bununla da əhali artımını və ailə ənənələrinin, varisliyini, həmçinin uşaqların sosiallaşdırılmasını və ailə üzvlərinin mövcudluğunu təmin edən...insan toplumudur" (1, s. 8).

İnsan həyatının mühüm mərhələlərindən biri olan evlənmə ilə, ana-ata olma fürsəti əldə edilir. Ana-ata olmaq, həyat boyu yoldaş olmaq sıradan adi hal kimi görünsə də, mahiyyət və keyfiyyəti etibarilə ciddi məsuliyyət tələb edir. Hər bir fərd, bu müddətdə müsbət və ya mənfi şəkildə təsir altında qalır. Evlilik həyatındakı axsaqlıqlar, bəzən boşanmaya səbəb ola bilər. Necə deyərlər "Məhəbbət böyük hisslərlə başlayıb, xırda davalıqlarla başa çatır" (2, s. 283). Ailənin parçalanması (boşanma) ruhi və ictimai dəyişikliklərə səbəb olur. Ailənin dağılması ciddi mənada üzərində dayanılması lazım olan bir mövzudur. Əfəndimizin (səllallahu əleyhi və səlləm); "Allahın ən çox istəmədiyi hal (iş), boşanma", "Evlənin boşanmayın. Boşanmaqdan ərş titrəyər" buyurması dinimizdə evliliyin nə qədər mühüm olduğunu göstərir.

Anlaşmamazlıq ən sıx qarşılaşılan boşanma səbəbidir, ikincisi isə "tərk etmə dir". Digər səbəblər arasında ağıl xəstəliyi, cana qəsd və zina var. Əfəndimiz (sallallahu əleyhi və səlləm) bir hədisində; "Qadınları, əxlaqsızlıq mövzusu xaricində boşamayın. Allah nəfslərinə əxlaqsız düşkün qadın və kişiləri sevmir" buyurmaqdadır. Davamlı əyləncə arxasında qaçan şəxslərin, xoşbəxt olmayacaqları şübhəsizdir.

İctimai dəyişikliklərin və stress faktorlarının da boşanma prosesinə təsiri qaçılmazdır. Ailəni yaşayan bir "orqanizm"ə bənzətsək, bəzən daxili xəstəliklərin bəzən də xarici qaynaqlı mikrobların bu quruluşu məhv etdiyini deyə bilərik.

Boşanma ilə üz-üzə qalan insan bəzən bir problemdən xilas olmaq istəyərkən digər bir çox problemin meydana gəldiyini görə bilmir. Bu səbəblə boşanmanı yeni və gözəl bir mərhələnin başlanğıcı olaraq görməmək, əksinə ona həyatın mənfi tərəflərinin güc gəldiyi bir mərhələ kimi baxmaq lazımdır. Boşanmanın əvvəli, boşanma mərhələsi və boşanma sonrasındakı inkişafların əksəriyyəti mənfi hadisələr şəklində cərəyan edir və ailənin parçalanma prosesində ciddi problemlər meydana gətirir bununla da boşanmanı sürətləndirir. Əslində bu parçalanma, ortaq keçmiş və ortaq həyatın bitməsi deməkdir. Əfəndimizin (səllallahu əleyhi və səlləm) hə-

dislərində; "Boşanma üzərinə and yoxdur. Ancaq münafiq olan kimsə onunla and istəyər ':" Ey Muaz! Allah, yer üzündə kölə (qul) azad etməkdən daha sevdiyi bir şey yaratmadı. Yenə yer üzündə, boşanmaqdan daha çox istəmədiyi bir şey yaratmadı ..." buyurur. Quran-ı Kərimdə 65-ci surə "Talaq" surəsində (12 ayədən ibarət olan bu surədə), boşanmanın hökmləri açıqlanmışdır. Bu surədə boşanma qərarının nə zaman verilməli, boşandıqdan sonra yeni bir evlilik üçün, nə qədər gözlənməli olduğu kimi hökmlər də vardır. Möminlər, evliliyi davam etdirmə mövzusunda vasvası davranmalı, ancaq ailə içi çətinliklər dözülməz bir hala gəldiyində bu yola müraciət etməlidirlər.

Quranda, yoldaşların bir-birinə qarşı yaxınlıqları açıqlanarkən, bir-birləri üçün paltar olduqları da ifadə edilir. "...onlar Sizin, Siz də onların libasısınız" (2, s. 17). Bu baxımdan evlənəcək kəslərin, bu müqaviləyə dünyəvi və axirət adına addım atdıqlarını unutmamaları, bunun bir əyləncə olmadığı, evlənmədən əvvəl yaxşı düşünülməsi lazım olan əhəmiyyətli bir addım olduğunu anlamalıdırlar.

Ailənin mənəvi dəyəri ciddi şəkildə düşünülərək ələ alındığında və ailəyə önəm verərək ailə qurulduğunda boşanma fikri ancaq son anda ağıllara gəlir. Boşanmanı yaşanan problemlərin ilk müraciət həlli olaraq görmək, boşanandan sonra hər şeyin həll olacağını düşünməkdən qaynaqlanır. Hər ailədə yaşanması ola biləcək problemlər qarşısında, qarşılıqlı sevgi və hörmətə dəyər verilməsi, bəzi çətinliklərə dözülməsi, qarşılıqlı güzəştə gedilməsi əvəzinə boşanmaya yönəlməsi tələsik verilmiş səhv bir qərardır. Bu zaman ana və atanın üzərinə böyük məsuliyyət düşür. Çünki ana və ata ailənin prioritetlərini müəyyən edir. "Azərbaycan xalqı deyər ki, atanın (valideynin) boynunda övladınının üç borcu vardır: -böyütmək, tərbiyə edib oxutmaq və evləndirmək" (3, s. 206). Lakin "Müasir dövrdə ailə həyatı normalara davamsız olmuşdur: valideyn nüfuzunu şərtləndirən amillər xeyli dəyişmişdir, valideynlər uşaqları ailə həyatına hazırlamaq üçün kifayət qədər vaxt və qüvvəyə malik deyildilər, valideynlərin hətta bir çox yaxşı ənənələri onların övladlarının ailə həyatında qəbul olunmur" (4, s. 340).

Ailənin gerçək bir ailə kimi formalaşması üçün mənəvi dəyərlərin o ailədə hakim olması lazımdır. Mənəvi dinamikası olmayan ailədə, "xəstəliklər" meydana gəlməyə başlayır və zamanla bu xəstəliklər fərdlərin duyğularını və davranışlarını dəyişdirir. Davranış və duyğuların dəyişdiyi ailə mühitində isə insanlar bir-biri ilə qarşıdurmaya girir. Bu qarşıdurma bəzən açıq, bəzən də gizli bir şəkildə olur. Açıq qarşıdurmanı uşaqların fərq etməsi çox asandır. Ancaq unudulmamalıdır ki, uşaq ailədəki gizli qarşıdurma və problemləri də fərq edir. Onlarda zamanla ciddi psixoloji problemlər meydana gəlməyə başlayır. "Boşanmanın uşaq problemləri necə də önəmlidir?! Boşanma, ailənin dağılması uşaqların tərcümeyi-halında ən dəhşətli mərhələ kimi həmişə xüsusi yer tutur. Onlar nə qədər ki, kiçikdirlər, bu acı günləri ananın göz yaşları, atanın kinli baxışları ilə xatırlayanda kövrəlirlər. Yaş artdıqca boşanma uşaqlar üçün şəxsiyyət probleminə — ananın (ailənin) taleyi probleminə çevrilir. Onlar bu problemi gecə-gündüz "məhəbbət və nifrət", "ata məhəbbəti-ata nifrəti" kimi psixoloji baxımdan əzablı dilema kimi yaşayırlar" (2, s. 298). "Psixoloqlar təsdiq edir ki, uğursuz ailələrin övladları çox zaman bu uğursuzluqları özləri də bilmədən bir "ənənə" kimi yaşadırlar. Valideynləri ayrılmış və ya boşanmış şəxslərinin uşaqlarının eyni prosesi yaşamaq riski digərləri ilə müqayisədə kifayət qədər böyükdür. Orta hesabla kişilər qadınlara nisbətən təqribən iki dəfə çox bu riskə məruz qalırlar. Hər iki tərəf-müqabil uğursuz və ya bədbəxt ailələrin nümayəndələridirsə, bu risk bir qədər də böyüyür" (1, s. 374).

Müasir ailələri təhdid edən ünsürlər, dinimizin qadağan etdiyi ünsürlərlə üst-üstə düşür. Məsələn, içkinin istifadəsi evlərdə şiddət, yoxsulluq, davranış pozuqluqları meydana gətirir. Zina edən kəslər isə, əslində özlərinə qarşı hörmətsizlik edir və zamanla ən əhəmiyyətli də-

yərlərini itirirlər. Anlaşılmazlıq səbəbləri arasında içki, zina, qumar, yalan danışma sıxlıqla yer alır. Bunların olduğu yerdə dinclik, güvən, sədaqət, fədakarlıq olmaz. Eqoizm və fərdi xoşbəxtlik axtarışı, boşanmanı sürətləndirən digər amildir. Ancaq həmişə eqoist və tək tərəfli dünyagörüşü ilə öz rahat və mənfəətini düşünən fərdlər, bu eqoizm nəticəsində başqalarının da davranışlarını pozur. Yəni fədakarlıq görənlər fədakar davranışlar edərkən, eqoist davranışları görənlər; "Niyə həmişə mən fədakarlıq edirəm?" deyərək zamanla müsbət davranışlardan imtina edirlər. Çox nadir hallarda fədakarlıq həyat boyu tək tərəfli sərgilənir. Bu vəziyyət tam bir səbir məsələsi olub xeyli bezdirici bir müddətdir.

Hər bir hüquq sistemində, qadın və kişinin təyin olunmuş haqq və məsuliyyətləri vardır. Bir yerdə məsuliyyət varsa, orada yaranan hüquqlar da göz ardı edilməməlidir. Yaradılışlarındakı fərqlilik səbəbiylə qadın və kişinin ailə həyatındakı haqq və məsuliyyətləri da fərqlidir. Qadının və kişinin etməsi və etməməsi lazım olanlar, valideynlərin uşaqları və bir-birləri üzərindəki haqq və məsuliyyətləri kimi mövzular çox dəqiq bir şəkildə təyin olunmuşdur. Quran-ı Kərimə görə (Nisa Surəsi), kişi, evin idarəçisi, baxıcısı və hakimidir. Xüsusilə ev içində və xaricindəki ağır öhdəliklər kişilər üçün təyin olunmuşdur. Ayrıca evin idarəçisi vəzifəsini yerinə yetirən kişi, xanımına qarşı yaxşı davranmaq və onun hüquqlarını qorumaq məcburiyyətindədir. Qadın və kişi hər zaman üçün iffət və namusunu qoruma nöqtəsində bir-birinə və Allaha qarşı məsuldur. "...Zahirən gözəl və yaraşıqlı qadın əgər təqva sahibi olmayıb ismətini qorumursa, onda əyyaş və fasid adamların təsiri altına düşər...nəticədə öz ərini bir sıra fəlakət və çətinliklərlə qarşı-qarşıya qoyar" (5, s. 374). Haqq və məsuliyyət anlayışının yaxşı niyyətlə ortaya qoyulduğu sevgi və hörmət içində formalaşan ailə mühitində kimsə kimsədən narahat olmayacaq. Necə deyərlər "...əxlaqlı, imanlı və ismətli qadınla evlənməyin nəticəsi səadət və əmin-amanlıq olar. Bu cür qadınlar öz ərləri ilə mehriban olar... və öz övladlarına da gözəl tərbiyə verər" (5, s. 374). Qadının gərəksiz və həddindən artıq bir şəkildə ön plana çıxarılması, iqtisadi azadlıq qazanaraq bunu ərinə qarşı şantaj olaraq istifadə etməsi, "Pulum var, sənə möhtac deyiləm, istədiyimi edərəm" düşüncəsinin yaradılması, "bərabərlik" adı altında ər-arvad arasında hörmətsizliyin və məsuliyyətsizliyi artması, ailə quruluşunun təməllərinə zərbədir. Feminist dünyagörüşü qadını ucaltmaq istəyərkən kişi ilə rəqabətə gətirib çıxartmış və ailə dincliyini pozmuşdur. Qadın kişi arasında rol qarışıqlığı başlamış, iqtisadi qayğıların ön plana keçdiyi ailə nizamı meydana gəlmiş, qadının çalışması təşviq edilmiş, buna bağlı olaraq kiçik problemlərdə belə, bir-biri ilə yollarını ayırmağa hazır olan ailə üzvləri ortaya çıxmışdır. Ər hörmət duyulan mövqedən daha aşağı mərtəbələrə düşmə söz mövzusu olmuşdur. Bu baxımdan "feminizm" küləyinin çox ailə ağacının aşmasına səbəb olduğu göz ardı edilməməlidir.

Medianın təsiri ilə qadına verilən rol dəyişmişdir. Ailə üçün fədakarlıq etmək sadə və alt səviyyədə davranış olaraq təqdim edilmişdir. Bu gün cəmiyyətdə təhsili nə olursa olsun, yoldaşına və uşaqlarına xidmət etməyi müqəddəs bir vəzifə olaraq görən, yoldaş və uşaqlarından da layiq olduğu hörməti görən qadınlara ehtiyac vardır.

Ailənin həddindən artıq dərəcədə televiziya və kompüterə bağlılığı, xarici dünyaya aid mesajlara açıq olması təhlükəlidir. Çünki bu zaman ailə şəxsiyyəti ortadan qalxmaqda, mənəvi şəxsiyyət pozulmaqda, davamlı ətrafı seyr amma özünü unudan bir quruluş ortaya çıxmağa başlayacaqdır. Ailə içi ünsiyyətin zəiflədiyi, fərdlərin öz başına hərəkət edib zaman keçirdiyi, ortaq danışma və hədəflərin azaldığı, fərdi fəaliyyətlərin ön plana çıxdığı ailə mühitində, məkana dair qopmaları açıq-aydın hiss olunur.

Ana-atanın çox dindar olduğu, ancaq uşaqların xarici dünyanın təsirində yetişdiyi ailələrin sayı artmaqdadır. Bu baxımdan gələcəyə aid planların ortaq olması, mühümdür. Adamda ya-

ranan psixiatrik xəstəliklərin də, davranış və duyğuları dəyişdirdiyini unutmamalıyıq. Depressiyaya girən bir fərdin bədbəxtliyi davranışlarında əks olunur. Əsəbi, narahat, dözümsüz, hər şeydən şikayət edən, ən kiçik qıcığa gərginliklə cavab verən bir valideyn, mühitə ancaq bədbəxtlik aşılar. Bu zaman müsbət enerji azalır və bu mühitdə başqa çətinliklər baş qaldırır. Ənənə və adətlərin sıx yaşandığı bəzi bölgələrimizdə ana-ata və uşaqların həyatına müdaxilə daha sıx görülür. Nənə və babanın eyni evdə yaşamasının heç bir ziyanı olmadığı kimi, əksinə çox əhəmiyyətli faydaları vardır. Bu kəslər istər eyni evdə istər ayrı evdə yaşasalar da ailə mühitinə həddindən artıq müdaxilə etmələri, əhəmiyyətli problemlərə gətirib çıxarır. Ər-arvaddan hər hansı birinə digəri haqqında edilən qeybət, dedi-qodu, böhtan o ailəyə ediləcək ən böyük pislikdir. Uşağını sevən və onun xoşbəxtliyini düşünən hər ana-atanın daha diqqətli olması və uşaqlarının evlilik sonrası həyatlarına yeri gəldiyində müsbət bir şəkildə müdaxilə etməsi əhəmiyyətlidir. "Ya müsbət danış yaxud sus" prinsipi bu mövzuda davamlı işləməlidir. Özlərinə daha yaxşı bir gəlin və ya bəy (kürəkən) tapmaq üçün ailəni dağıdanlar, sonradan daha böyük problemlərlə qarşılaşırlar. Kənardan edilən müdaxilə səbəbindən ailənin parçalanması, ən kədərli boşanma səbəblərindən biridir. Bəzən "dedi ki" "demiş ki" səbəbiylə, ailələr parçalanır. Və bütün bunlar boşanmanın heç də ailədə baş verən qəfil hadisə olmadığını bir daha təsdiqləyir. "Ailədə ər və arvad arasında müxtəlif ixtilaflar ola bilər. Onları barışdırıb sülh yaradıb, ailənin dağılmasının qarşısını almaq hər bir müsəlman hümməti üçün vacib sayılır" (5, s. 376).

Sağlam ailə sağlam cəmiyyət deməkdir. Başqa sözlə, toplumun, dövlətin əsasını sağlam ailələr təşkil edir. Ailə cəmiyyətin bir nüvəsi isə, deməli, əvvəlcə təmiz cəmiyyətin toxumları da burada atılacaq. Bu baxımdan ailə siyasətinin yenidən qurulması və onun problemlərinin innovativ həllində ailə-nikah münasibətlərinin xalqımızın tarixi ailə ənənələrinə uyğunlaşdırılmasına ciddi ehtiyac vardır.

**Məqalənin aktuallığı.** Ailə ər-arvad, valideyn və övladlar, bacı-qardaşlar, baba, nənə və digər qohumlar arasındakı qarşılıqlı münasibətlərlə səciyyələnən mürəkkəb bir sistemdir. Ailə üzvləri arasındakı münasibətlərin əsasında məhəbbət, hörmət, qayğı, diqqət, nəzakət, qarşılıqlı güzəşt, etibar, güvən olduqda onlar bir-birini daha yaxşı başa düşür, böyüyən uşaqlar da sağlam mənəviyyata, tərbiyəyə yiyələnmiş şəxsiyyət kimi formalaşırlar. Əlverişli olmayan mənəvi-psixoloji iqlim, əsassız ixtilaflar, ər-arvadın öz vəzifələrini yerinə yetirə bilməməsi, münaqişələr, vəfasızlıq halları boşanmaya gətirib çıxarır ki, bu da ailənin dayaqlarını sarsıdır. Bu baxımdan mövzunun aktuallığı diqqət çəkir.

**Məqalənin elmi yeniliyi.** Ailəyə sistemli yanaşdıqda demək olar ki, burada hər şey bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdədir. Ailə həm bioloji, həm psixoloji, həm də canlı sosial orqanizmdir. Məqalədə ailə məhz bu kontekstdə araşdırılmışdı.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Nikaha daxil olmanın bir çox motivləri vardır və onların arasında məhəbbət, daimi cinsi tərəfdaşın olması istəyi, uşaqlara sahib olma arzusu, məişət probleminin birgə həlli və bu kimi amillər əhəmiyyətli yer tutur. Öz həyat yoldaşına inam bəsləyən, ona etibar edən, sədaqətli olan və ailəyə sevgi ilə yanaşan insanlar arasında nikah daha uğurlu olur. Bu baxımdan məqalədəki materiallardan ailədaxili münasibətlərin və ər-arvad konfliktlərinin tənzimlənməsində istifadə edilə bilər.

## Ədəbiyyat

1. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı: Mütərcim, 2015, 422 s.
2. Əlizadə Ə.Ə. Qadın psixologiyası. Bakı: Təhsil, 2015, 413 s.
3. Əliyev R.İ. Mentalitet. Bakı: Elm və təhsil, 2009, 229 s.
4. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-Poliqraf, 2003, 356 s.
5. Baxşəliyev Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı: Elm və təhsil, 2011, 479 s.

**Е.Б. Аскерова**

## Развод как следствие несовместимости

## Резюме

Человеческую цивилизацию невозможно представит без семьи и семейного образа жизни. Семья в своей сути отражает особенности всех общественных событий. Поэтому всем ясно, каким болезненным является процесс развода. В статье анализируются уместными фактами развод как широко распространенный способ решения серьезных конфликтов между мужем и женой; причины семейных конфликтов, приводящие к разводу; его негативные последствия, ряд социально-психологических проблем у детей и в обществе.

**Y.B. Askarova**

## Divorce as e result of incompatibility in marriage

## Summary

It is impossible to imagine human civilization without a family and a family lifestyle. The family in its existence reflects the characteristics of all social events. From this point of view, it was clear to everyone how painful the divorce process was. The article analyzes the existence of divorce as a common solution to serious conflicts between husband and wife, the causes of family conflicts, its negative consequences, a number of socio-psychological problems for children and society.

**Redaksiyaya daxil olub:** 04.04.2022